# ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏT SIĞORTASININ QAYDALARI

**Bakı 2012**

# ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏT SIĞORTASININ QAYDALARI

## ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

**Anlayışlar:**

Əgər kontekstdə başqa hal nəzərdə tutulmamışdırsa, qaydalarda istifadə olunan termin və anlayışlar aşağıdakı mənaları daşıyır:

**Ümumi:**

**Sığortaçı** – “Meqa Sığorta”Açıq Səhmdar Cəmiyyəti
**Sığortalı** – sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;
**Faydalanan şəxs** – sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs;
**Sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;
**Sığorta şərtləri** – Sığortanın həyata keçirilməsi üçün bu Qaydalarda və sığorta müqaviləsində (şəhadətnaməsində) müəyyən olunmuş şərtlər;
**Sığorta hadisəsi** – qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;
**Sığorta müddəti** – sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət.
**Sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;
**Sığorta tarifi** – sığorta haqqının sığorta məbləğindən faizlə dərəcəsi.
**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;
**Françiza** – zərərin sığorta təminatına daxil olmayan hissəsi;
**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;
**Sığorta təminatı** – Sığortaçının zəzərin ödənilməsinə təminat verdiyi hal;
**Əhəmiyyətli şərtlər** (zəmanətlər) – sığortalı tərəfindən yerinə yetirilməməsi halında Sığortaçıya sığorta ödənişi verməkdən imtina etməyə və ya sığorta müqaviləsini ləğv etməyə hüquq verən şərtlər.
**Sığortanın əhatə etdiyi ərazi** – Sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi (yer).

## 1. SIĞORTA PREDMETİ VƏ SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

1.1. Bu Qaydalar üzrə sığorta predmeti sığortalının üçüncü şəxslərin əmlakına vurduğu zərərlə bağlı mülki məsuliyyətidir.

1.2. Bu sığorta Qaydaları ilə sığortaçı sığorta şəhadətnaməsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisəsi nəticəsində üçüncü şəxslərin həyatına, sağlamlığına və əmlaklarına dəyən itki və ziyana dəyməsinə görə sığortalının üçüncü şəxslər qarşısında

məsuliyyətinə, ona qarşı irəli sürülən iddia və tələblərə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təminat verir.

Sığortalı hüquqi şəxsdirsə, sığortalının işçilərinin, vəzifəli şəxslərinin, həmçinin etibarnamə və vəzifə təlimatlarına əsasən onun adından çıxış edən digər şəxslərin hərəkətləri də sığortalının hərəkətlərinə aid edilir.

1.3. Bu Qaydalar müəyyən olunan sığorta növü sinfinə görə ümumi mülki məsuliyyətin sığortası sinifinə aid edilir.

## 2. SIĞORTANIN ƏRAZİSİ

Sığorta müqaviləsində digər ərazi nəzərdə tutulmayıbsa, bu sığorta Azərbaycan Respublikası ərazisində qüvvədədir.

## 3. ƏLAVƏ SIĞORTA HAQQI MÜQABİLİNDƏ SIĞORTA TƏMİNATINA DAXİL EDİLƏN ZƏRƏR

Sığortalı mülkiyyət sahibi və ya işin icraçısı kimi təmsil edilmişdirsə, sığorta şəhadətnaməsində onun daşınmaz mülkiyyətində olan əmlak kimi qeyd olunmuş və yaxud görülən iş zamanı istifadə olunan liftin və ya montaj avadanlıqlarının üçüncü şəxslərə vuracağı itki və ziyan əlavə sığorta haqqı müqabilində sığorta təminatına daxil edilə bilər.

## 4. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏR (İSTİSNALAR)

Aşağıda göstərilən hallar nəticəsində ortaya çıxan itki və ziyanla bağlı tələblər sığorta təminatına daxil edilmir:

4.1. Qəsdən və ya şüurlu hərəkətlər;

4.2. Hər hansı bir müqavilənin şərtlərinə və ya xüsusi anlaşmaya əsaslanaraq sığortalının qanuni məsuliyyət həddini aşması.

4.3. Sığorta hadisəsi zamanı sığortalıya xidmət göstərən və ya əmək müqaviləsi ilə bağlı olan şəxslər, həmçinin sığortalının ailə üzvləri tərəfindən irəli sürülən tələblər.

Bu maddəyə görə sığortalının həyat yoldaşı, valideynləri və onların övladları (sığortalının övladlığa götürdüyü şəxslər və onu övladlığa götürən şəxslər də daxil olmaqla) sığortalı ilə bir yerdə yaşayan qardaş-bacıları, kürəkənləri, gəlinləri və onun himayəsində olan digər qohumları, sığortalının həyat yoldaşının valideynləri və övladları, qardaş və bacıları sığortalının ailə üzvü sayılır.

**<u>Sığortalı hüquqi şəxsdirsə</u>**, onun qeyri-məhdud məsuliyyətli səhmdarları və onların yuxarıda göstərilən ailə üzvləri tərəfindən irəli sürülən tələblər də sığorta təminatına daxil edilmir;

4.4. Mühərrikli nəqliyyat vasitələri və onlara qoşulan yedəklər, mühərrikli velosipedlərin (mopedlərin) və hər növ hava nəqliyyat vasitələrini idarə edənlər və ya sahiblərinə qarşı irəli sürülən tələblər;

4.5. Məşqlər də daxil olmaqla, avtomobil, motosiklet, velosiped, dəniz nəqliyyat vasitələri ilə bağlı yarışlarda, at, boks, güləş üzrə yarış və müsabiqələrdə iştirak ilə əlaqədar itki və ziyan;

4.6. Müharibə, üsyan, iğtişaş, tətil və bunların yatırılması və ya qarşısının alınması məqsədilə keçirilən inzibati və ya hərbi tədbirlər;

4.7. Zəlzələ, sel, su basması, qar uçqunu, vulkan püskürməsi, partlayış, yanğın, duman, his, buxar, su, çürümə və ya rütubətin nəticəsi;
4.8. Üçüncü şəxslərə aid olub sığortalının ailə üzvlərinə, işçilərinə borc, kirayə, mühafizə, təmir, istifadə və ya hər hansı bir başqa məqsəd üçün verilmiş, onların nəzarətləri altında olan mallarla əlaqədar;
4.9. Sığortalı, onun işçiləri və yaxud sığortalının adından çıxış etməyə səlahiyyəti olan şəxslər tərəfindən emal və ya istifadə edilən, əşyalara və ya bu əşyalarla funksional əlaqəsi olan texniki cihaz və qurğulara işin qüsurlu aparılması ilə əlaqədar dəyən itki və ziyan;
4.10. Sığortalının işçilərinin çalışdıqları bina və əraziyə vurduqları itki və ziyan.

## 5. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI

Sığorta, əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta şəhadətnaməsində göstərilmiş başlanma və sona çatma tarixlərində Azərbaycan vaxtı ilə saat $24^{00}$-da başlayır və saat $24^{00}$-da sona çatır.

## 6. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ

6.1. Sığorta haqqının bütövlükdə və ya hissələrlə ödənilməsi razılaşdırıla bilər. Sığorta haqqı (sığorta haqqının birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman, (qalan hissələr isə sığorta şəhadətnaməsində göstərilən tarixlərdə) ödənilməlidir.
6.2. Sığorta haqqı (onun birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman ödənilməsə, sığortaçı sığorta ilə əlaqədar heç bir məsuliyyət daşımır və bu şərt sığorta şəhadətnaməsində qeyd olunmalıdır.
6.3. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı halda, sığorta hadisəsi baş verdiyi zaman ödənilməli olan bütün hissələr sığorta ödənişindən bir dəfəyə çıxılır və bu şərt sığorta şəhadətnaməsində qeyd olunmalıdır.
6.4. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı hallarda, hissələrdən hər hansı biri şəhadətnamədə göstərilən vaxta ödənilməzsə, Sığortaçı onun ödənilməsi üçün yazılı surətdə 15(on beş) günədək müddət müəyyən edə bilər. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir. Müəyyən olunmuş gün ərzində sığorta haqqı ödənilməzsə sığorta şəhadətnaməsi etibarsız hesab olunacaq. Ləğv etmənin hüquqi qüvvə qazandığı tarixə qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ sığorta olunana qaytarılır.
6.5. Əgər sığorta şəhadətnaməsində sığorta haqqının (birinci hissəsinin) ödənilməsinə qədər sığorta şəhadətnaməsinin qüvvəyə minməsi nəzərdə tutulmuşdursa, sığorta haqqı (birinci hissə) sığorta şəhadətnaməsi qüvvəyə mindiyi andan 15 gün ərzində ödənilməlidir.
Sığorta haqqı (birinci hissə) göstərilən müddət ərzində sığortaçıya ödənilməzsə, sığorta şəhadətnaməsi qüvvəsini itirir.

## 7. SIĞORTALININ SIĞORTA MÜQAVİLƏSİ BAĞLANAN ZAMAN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatı sığortaçıya bildirməlidir. Sığortalının bildirdiyi məlumatın yanlış və ya yarımçıq olması hallarında:

7.1. Sığortalının bu hərəkəti qəsdən etdiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə, ödəniş verməz. Belə olan halda sığortaçı ödənilmiş sığorta haqqını qaytarmaya bilər;

7.2. Sığortalının bu hərəkəti qəsdən etmədiyi müəyyən olunarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər və ya sığorta şəhadətnaməsinin şərtlərini dəyişdirə, yaxud əlavə sığorta haqqı almaqla sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

Əgər sığortalı şəhadətnamənin şərtlərinin dəyişdirilməsinə və ya əlavə sığorta haqqının ödənilməsinə razı olmazsa, sığorta şəhadətnaməsi bu dəyişikliyin baş verdiyi andan etibarsız sayılır.

Sığortaçı tərəfindən həyata keçirilən ləğv etmə onun bu haqda sığortalıya sifarişli məktubla məlumat göndərdiyi tarixdən etibarən 15 iş günündən sonra saat 24.$^{00}$-da qüvvəyə minir;

7.3. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etmək hüququ qüvvədən düşür;

7.4. Sığortalının hərəkətinin qəsdən edilmədiyi hallarda, əgər sığorta hadisəsi sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya sığortaçının sığorta şəhadətnaməsinin ləğv olunmasını tələb edə biləcəyi müddət ərzində və yaxud şəhadətnamə ləğv edilmiş hesab olunana qədər keçən müddət ərzində baş verərsə sığortaçı, ödənişi ödənilən sığorta haqqı ilə ödənilməli olan sığorta haqqı arasındakı nisbət həcmində azalda bilər.

## 8. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTALININ MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

8.1. Sığorta şəhadətnaməsi imzalandıqdan sonra sığortalanmış risk ilə bağlı sığortalının bildirdiyi hallarda dəyişiklik baş verərsə, o, sığorta hadisəsinin baş verməsi ehtimalına təsir edə bilən və ona məlum olan bütün dəyişikliklər haqqında sığortaçıya ən geci 8 gün ərzində məlumat verməlidir.

8.2. Sığortaçı dəyişikliyi öyrəndiyi tarixdən etibarən 8 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı tələb etməklə sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

8.3. Sığortalı, 8 gün ərzində tələb edilən əlavə sığorta haqqını ödəməyəcəyini bildirdiyi təqdirdə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

8.4. Sığortaçı tərəfindən edilən ləğv etmə onun bu haqda sifarişli məktubla poçta sığortalıya məlumat göndərildiyi tarixdən etibarən 15 gün sonra saat $24^{00}$-da qüvvəyə minir.

8.5. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etmək hüququ qüvvədən düşür.

8.6. Sığorta riskinin başvermə ehtimalını artıran dəyişiklikləri sığortalı göstərilən müddət ərzində qəsdən bildirməmişdirsə, bu dəyişiklik baş verən andan sonra dəyən zərərə görə sığortaçı məsuliyyət daşımır.

8.7. Dəyişiklik riskin başvermə ehtimalını azaldarsa və daha az sığorta haqqının alınmasını tələb edərsə, bu dəyişikliyin ortaya çıxdığı tarixdən sığorta şəhadətnaməsinin sona çatma tarixinə qədər olan müddət üçün sığorta haqqı gün hesabına görə hesablanır və fərq sığortalıya qaytarılır.

## 9. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ

9.1. Sığorta qanunvericiliyində və ya könüllü sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı

30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

9.2. Sığorta müqaviləsinə(qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) Sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə Sığortalıya qaytarır.

9.3. Sığorta müqaviləsinə(qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

9.4. Sığorta müqaviləsinə(qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) Sığortalıya qaytarılmır.

9.5. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından(qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Maddənin 9.1-ci və 9.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

9.6. Sığorta müqaviləsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində müəyyən edilmiş qaydada xitam verilmiş hesab edildikdə, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Maddənin 9.3-cü və 9.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, Sığortalının qanuni nümayəndəsinə qaytarır.

9.7. Əgər Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, işlərin aparılması xərcləri dedikdə inzibati xərclər və sığorta ödənişi nəzərdə tutulur.

## 10. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTALININ VƏZİFƏLƏRİ

Sığortalı, sığorta şəhadətnaməsində göstərilən sığorta riski baş verdiyi zaman itki və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq üçün zəruri və məqsədyönlü tədbirləri görməlidir. İtki və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq məqsədilə çəkilən məqsədəuyğun xərclər sığortaçı tərəfindən ödənilir.

## 11. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏN SONRA SIĞORTALININ VƏZİFƏLƏRİ

11.1. Sığortalı onun mülki məsuliyyətinə səbəb ola biləcək sığorta hadisəsinin baş verməsini bildiyi və ya bilməli olduğu andan 5 gün ərzində bu haqda sığortaçıya yazılı məlumat verməlidir.

11.2. Bu məlumatda qəzanın yeri, vaxtı, səbəbləri və şəraiti haqqında, qəza nəticəsində ölən və yaralananlar, zərər çəkmiş mallar və onların sahibləri ilə bağlı məlumat dolğun və düzgün əhatə olunmalıdır.

11.3. Sığortalı zərərlə əlaqədar səlahiyyətli dövlət orqanlarının və digər şəxslərin bütün hərəkətləri haqqında sığortaçıya məlumat təqdim etməlidir.

11.4. Sığortalı, sığortaçının yazılı tələb edəcəyi bütün məlumat və sənədləri ən gec 8 gün ərzində lazım olduqda gecikmənin səbəbini izah etmək şərti ilə, sığortaçıya təqdim etməlidir.

11.5. Sığortalı itki və ziyan tələbinin araşdırılması və hüquqlarının müdafiəsi işində sığortaçıya hərtərəfli kömək göstərməlidir.

11.6. Sığortaçının rəsmi razılığı olmadan sığortalı itki və ziyan tələbini bütövlükdə və ya qismən qəbul edə bilməz habelə bununla əlaqədar hər hansı bir ödənişi həyata keçirə bilməz.

## 12. SIĞORTA ÖDƏNİŞİNİN MƏBLƏĞİNİN MÜƏYYƏN EDİLMƏSİ

12.1. Sığortalı tərəfindən aşağıda göstərilən sənədlərin təqdim olunması vaxtından etibarən 15 iş günü ərzində sığortaçı sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişi verməkdən imtina olunması haqqında qərar qəbul edir:

- Sığorta ödənişinin verilməsi barədə ərizə;
- Sığorta şəhadətnaməsi;
- Baş vermiş hadisə ilə bağlı aidiyyətli orqanların tərtib etdiyi sənədlər (arayış, akt, rəy və s.);
- Zərər dəymiş sığorta predmetinə mülkiyyət hüququnu təsdiq edən sənəd;
- Zərərlə bağlı müstəqil ekspertlərin tərtib etdikləri rəy və zərər hesabı;
- Sığorta hadisəsinin mahiyətindən asılı olaraq digər sənədlər.

12.2. Sığortaçı, sığorta ödənişi ilə bağlı tələb irəli sürən şəxslərlə birbaşa əlaqəyə girərək razılığa gəlmək hüququna malikdir.

12.3. İddia irəli sürüldükdə onunla əlaqədar bütün işlər sığortaçı tərəfindən həll olunur.

12.4. İddia ilə əlaqədar xərclər sığortaçı tərəfindən ödənilir.

## 13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

14.1 **Sığortalının hüquqları:**

14.1.1. Sığortaçının Sığorta müqaviləsinin şərtlərinə əməl etməsini yoxlamaq, o cümlədən Sığortaçıdan maliyyə sabitliyi barədə, kommersiya sirri olmayan məlumatı əldə etmək;

14.1.2. Sığorta hadisəsi baş verdikdə Sığortaçıdan sığorta ödənişini həyata keçirməyi tələb etmək.

14.2 **Sığortalının vəzifələri:**

14.2.1. Sığorta haqqını Sığorta müqaviləsi ilə müəyyən edilmiş məbləğdə və müddətdə ödəmək;

14.2.2. Sığorta müqaviləsinin bağlanması üçün zəruri olan, eyni zamanda sığorta müqaviləsi ilə bağlı digər məlumatları Sığortaçıya təqdim etmək;

14.2.3. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməк;
14.2.4. Sığorta müqaviləsinə aid olan sənədlərin qorunub saxlanmasını təmin etmək.

14.3 **Sığortaçının hüquqları:**

14.3.1. Sığortalı tərəfindən verilən məlumatları və həmçinin Sığortalı və Sığorta olunan tərəfindən Sığorta müqaviləsinin şərtlərinə riayət edilməsini yoxlamaq;
14.3.2. Bu Qaydalarda nəzərdə tutulmuş hallarda sığorta ödənişini həyata keçirməkdən imtina etmək, belə ödənişlərin həyata keçirildiyi hallarda Sığortalı tərəfindən geri qaytarılmasını tələb etmək;
14.3.3. Sığortalı ona məlum olan riskin qiymətləndirilməsi üçün əhəmiyyətli hallar barəsində və sığorta hadisəsi haqqında Sığortaçıya qəsdən yanlış məlumat verməsi aşkar olunarsa sığorta ödənişini həyata keçirməkdən imtina etmək;
14.3.4. Sığorta haqqının hər-hansı ödənilməmiş hissəsi sığorta müqaviləsində göstərilən müddət ərzində ödənilmədikdə, Sığorta olunanlara xidmətlərin göstərilməsini dayandırmaq yaxud Sığorta müqaviləsinə xitam vermək;
14.3.5. Bu Qaydalarda nəzərdə tutulmuş qaydada və şərtlərlə sığorta müqaviləsinə xitam vermək.

14.4 **<u>Sığortaçının vəzifələri:</u>**

14.4.1. Müəyyən edilmiş müddətdə Sığorta şəhadətnaməsini Sığortalıya təqdim etməlidir;
14.4.2. Sığorta hadisəsi baş verdiyi halda müvafiq sənədlər əsasında sığorta ödənişi həyata keçirmək;
14.4.3. Sığortalı ilə münasibətlərdə məxfiliyi təmin etmək;
14.4.4. Sığorta müqaviləsinin vaxtından əvvəl xitam edilməsi halında, bu Qaydalarda müəyyən edilmiş qaydada hesablanmış məbləği 30 (otuz) bank günü ərzində Sığortalıya qaytarmaq.

## 14. BİR NEÇƏ SIĞORTA

Sığortalı, mülki məsuliyyətini başqa sığortaçılarda da eyni risklərə qarşı və eyni müddətə sığorta etdirmişdirsə, bu vəziyyəti sığortaçıya dərhal bildirməlidir.

## 15. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ

16.1. Sığorta müddəti ərzində sığortalı dəyişərsə, sığorta şəhadətnaməsindən irəli gələn bütün hüquq və vəzifələr onun razılığı ilə sığortanın yeni sahibinə keçir. Əgər yeni sahib sığortanın mövcudluğunu öyrəndiyi tarixdən etibarən 15 gün ərzində sığortanı qəbul etmədiyini sığortaçıya yazılı şəkildə bildirsə, sığortaçı mülkiyyət sahibinin dəyişilməsini bildiyi tarixdən etibarən 15 gün ərzində sığorta şəhadətnaməsini ləğv etmək hüququna malikdir.
16.2. Sığortaçının məsuliyyəti, onun ləğv etmə haqqında məlumatı sifarişli məktubla yeni sahibə bildirdiyi tarixdən etibarən 1 ay sonra saat $24.^{00}$-da sona çatır və istifadə edilməyən günlərə görə sığorta haqqı yeni sahibə qaytarılır.

## 16. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR

Sığortalının xəbərdarlıq və məlumatı sığorta şirkətinin mərkəzinə və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentə sifarişli məktubla çatdırılır.

Sığorta şirkətinin xəbərdarlıq və məlumatı da sığortalının sığorta şəhadətnaməsində göstərilən hüquqi ünvanına və ya sığorta şəhadətnaməsinin imzalanmasına vasitəçilik edən agentə bildirilən son hüquqi ünvanına sifarişli məktubla çatdırılır.
Tərəflərə imza edilməklə verilən məktublar və ya teleqraf vasitəsi ilə edilən xəbərdarlıq və məlumat da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumat səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 17. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərə görə məsuliyyət daşıyır.

## 18. MÜBAHİSƏLƏRƏ BAXILMASI

Tərəflərin sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələri danışıqları yolu ilə həll edirlər. Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyəti məhkəmələrdə baxılır.

## 19. MÜDDƏT

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 20. XÜSUSİ ŞƏRTLƏR

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.